# "Ahıllar evi"nin sakinləri Ahıllar Günündə tamaşa təqdim ediblər

**Dünən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin təşkilatçılığı ilə 1 Oktyabr - Beynəlxalq Ahıllar Gününə həsr edilən tədbir keçirilib.**

AZƏRTAC xəbər verir ki, Beynəlxalq Muğam Mərkəzində təşkil edilən tədbirdə rəsmi şəxslər, qeyri-hökumət təşkilatlarının nümayəndələri, agentliyin sosial tərəfdaşları və ahıllar iştirak ediblər.

Əvvəlcə ahıl şəxslər üçün sosial xidmət müəssisəsinin sakinlərinin fotolarından ibarət sərgiyə baxış keçirilib.

Sosial Xidmətlər Agentliyinin İdarə Heyətinin sədri Vüqar Behbudov bildirib ki, Ümummilli Lider Heydər Əliyev tərəfindən ahıllara, onların sosial müdafiəsinə göstərilən xüsusi diqqət və qayğının nəticəsi kimi ölkəmizdə 1993-cü ildən hər il Beynəlxalq Ahıllar Günü yüksək səviyyədə qeyd olunur.



Prezident İlham Əliyevin imzaladığı müvafiq fərmanlar və sərəncamlar, icra olunan proqramlar nəticəsində ahıllara dövlət qayğısının artırılması istiqamətində mühüm addımlar atılıb.

"Sosial xidmət haqqında" qanuna əsasən, ölkəmizdə yaşı 70-ə çatmış şəxslər ahıl hesab olunurlar.

Bildirilib ki, agentliyin ahıl şəxslər üçün sosial xidmət müəssisəsində hazırda 216 ahıl şəxs dövlət himayəsində yaşayır. Bu müəssisədə sakinlərin asudə vaxtlarının səmərəli təşkili üçün tədbirlər, mədəniyyət mərkəzlərinə, müxtəlif istirahət mərkəzlərinə ekskursiyaları, gəzintiləri və s. təşkil olunur. Həyata keçirilən layihələr çərçivəsində müəssisə sakinləri futbol və gimnastika məşğələlərinə cəlb edilirlər. Agentlik tərəfindən bu il tənha və əlilliyi olan 4 min 366 şəxsə evlərində sosial-məişət xidmətləri göstərilib ki, onlardan 3 min 980 nəfəri ahıl şəxslərdir. Son illər sosial xidmət sistemində yeni istiqamət kimi ahıllar üçün günərzi qayğı mərkəzləri də yaradılıb. Hazırda Gəncə, Qazax və Xaçmaz rayonlarında üç belə günərzi qayğı mərkəzi fəaliyyət göstərir.

Sonra "Ahıllar evi"nin sakinləri, əməkdaşları və peşəkar aktyorların "Bəxtiyar" filminin motivləri əsasında birgə hazırladığı tamaşa təqdim edilib. Xalq artistləri Fidan Hacıyeva, Cavan Zeynallı və Fərid Əliyevin ifaları dinlənilib.

Azərbaycan.- 2024.- 2 oktyabr (№ 215).- S.12.